# Yaşıl texnologiyalar
# Greentech

(yalnız Azərbaycan Respublikası vətəndaşları üçün)

REV.2

## 1. GİRİŞ

Resursların qorunması - davamlılığın açarıdır. Bu gün istifadə olunan texnologiyalar ətraf mühit, qlobal ekologiyaya və gələcək nəsillərin sağlamliğına fəlakətli nəticələr verə bilər. Müsabiqə sənaye sahəsində enerji səmərəliliyini artırmaq:
-bərpa olunan enerji mənbələrindən istifadə etmək;
-bərpa olunan enerji mənbələrinin həssaslığını artıracaq texnologiyaların aşkarlanması;
-istifadəsində günümüz texnologiyalarının təkmilləşdirilməsi;
-təbii sərvətlərin ehtiyatlı istifadəsi və gələcək nəsillərə ötürülməsini təmin edə bilən uyğun layihələr.
Sıfır tullantı hədəfinin həyata keçirilməsini asanlaşdıracaq texnologiyaların aşkar edilməsi.

## 2. MÜSABİQƏNİN MƏZMUNU

Müsabiqə insanların bərpa olunan enerji mənbələrindən istifadə haqqında məlumatlılığını artırmaq və cəmiyyətdə enerji səmərəliliyi mədəniyyətini formalaşdırmaqla innovativ və texnoloji ideyaları inkişaf etdirmək məqsədi daşıyır. Müsabiqə məhdud resurslardan səmərəli istifadəni təmin edən, sosial həyatı asanlaşdıran və innovativ, texnoloji, iqtisadi və ekoloji baxımdan təmiz həllər yaradan ideyaların aşağıdakı aspektlər üzrə həyata keçirilməsini əhatə edir:

● Ağıllı enerji paylanma sistemi (smart energy)
● Ətraf mühitə nəzarət
● İstifadə edilən resurslara nəzarət (smart life)
● Ekoloji təmiz həyat tərzi
● Bərpa olunan enerji mənbələri:
- günəş
- külək
- biokütlə
- geotermal
- dalğa enerjisi və s.
● Ən yeni enerji texnologiyalarının tətbiqi
● Sıfır tullantı (zero waste) və tullantıdan enerjiyə (waste to energy)
● Sənaye və təhlükəli tullantıların utilizasiyası
● Tullantıların çeşidlənməsi və nəzarət
● Təbii resurslardan "ağıllı" istifadə texnologiyaları
● Havanın çirkləndirilməsinə nəzarət
● Torpağın çirkləndirilməsinə nəzarət
● İçməli suyun təmizlənməsi texnologiyaları
● Hovuzların çirklənmədən və çirkab sulardan təmizlənməsi

● Enerjinin toplanması və saxlanılması texnologiyaları
● Alternativ enerji mənbələri
● Havanın karbon qazından təmizlənməsi
● Meşə yanğınlarının erkən aşkarlanması
● Ətraf mühitin qorunması :
-Karbon qazının tutulması texnologiyaları
-Su hövzələrinin ekoloji vəziyyətini yaxşılaşdırmaq
-Plastik tullantıların utilizasiyası

## 3. İŞTİRAK ŞƏRTLƏRİ

Müsabiqədə iştirak edə bilərlər:
A kateqoriyası – Orta məktəb şagirdləri
B kateqoriyası – Azərbaycanda təhsil alan ali məktəb tələbələri
C kateqoriyası – fərdi iştirakçılar və ya onlardan ibarət komandalar

• Orta məktəb komandaları məsləhətçi (mentor) cəlb etməlidir. Məsləhətçi qismində çıxış edəcək və məsləhətçi vəzifəsini yerinə yetirəcək şəxsin təsdiqedici sənədi layihənin təsviri ilə birlikdə sistemə (link və ya istinad qoyulsun "sistem" sözünə) yüklənilməlidir.
• Məsləhətçi komandanı finaladək dəstəkləyəcəyinə görə məsuliyyət daşıyır. A kateqoriyalı komandalar finalda öz məsləhətçisi ilə iştirak etməlidir.
• Layihənin ideyasını hardansa oğurlamaq qadağandır. Açıq onlayn resurslarda olan və ya onları imitasiya edən layihələr müsabiqədən kənarlaşdırılacaq. İştirakçı əvvəllər eyni layihə ilə müsabiqələrdə iştirak edibsə onda həmən layihənin bütün detalları təqdim olmalıdır (tarix, yer, təşkilatçı, nəticə)
• Hər layihə üçün ayrıca müraciət forması doldurulmalıdır.
• Komandalar elə formalaşdırılmalıdır ki, onların üzvlərinin sayı bütün kateqoriya və təhsil səviyyəsi (məsləhətçi bu saya daxil deyil) üçün maksimim 6 nəfər təşkil etsin.
• Hər komandada yalnız bir məsləhətçi ola bilər.
• Müraciətlər yalnız internet onlayn ərizə sistemi vasitəsilə edilir.
• Komandalar kapitanı öz üzvləri sırasından seçirlər. Kapitan öz komandasını internet saytda qeydiyyatdan keçirir. Sonra kapitan müraciət formasını veb-saytından yükləyir. Müraciət formasını komanda kapitanı doldurur. Kapitan komanda üzvlərinin hamısını düzgün və tam şəkildə qeydiyyatdan keçirərək ad, soyad, təhsil müəssisəsinin tam adını, şəhəri və ya iş yeri olduğu halda iş yerini (C kateqoriyası üçün) göstərir. Müraciət forması doldurulduqdan sonra kapitan onu sayta iştirakçılar portalının fərdi komanda səhifəsinə yükləyir. Bütün müraciətlər müsabiqənin inzibatçısı tərəfindən yoxlanılır.
• Komandalar müsabiqənin gedişatını portal vasitəsilə izləməlidirlər.
•Finalçı komandalara təqdim edilən nəqliyyat və mənzil dəstəyi 6 nəfərlə məhdudlaşdırılıb. Dəstək veriləcək şəxslərin sayı barədə komandalara T3 Fondu və Teknofest Azərbaycan tərəfindən bir qədər sonra məlumat

veriləcək.
• T3 Fondu və Teknofest Azərbaycan yarış üzrə festival ərazisində olan iştirakçıların sayını məhdudlaşdırmaq hüququna malikdir. Məhdudlaşdırmaya zərurət yaranacağı təqdirdə müsabiqə administrasiyası iştirakçıları məlumatlandıracaq. İştirakçılar yarış prosesinə tribunadan onlara azarkeşlik etməklə yarışa mane olmayan dəstək komandasına malik ola bilərlər.
• Eyni layihə ilə yalnız bir kateqoriyaya və ya bir müsabiqəyə müraciət etmək mümkündür. Fərqli kateqoriyalarda eyni layihəyə ilə və ya Teknofest Azərbaycan çərçivəsində təşkil olunan digər müsabiqəyə müraciət edən komandaların və ya şəxslərin müraciətləri etibarsız sayılacaq.
• Eyni komanda üzvləri Teknofest Azərbaycan çərçivəsində müxtəlif layihələrlə keçirilən müsabiqələrə müraciət edə bilər.
• Komandalar, fərdi iştirakçılar yalnız onların qeydiyyatdan keçdiyi kateqoriyalarda öz aralarında yarışacaqlar.
• Müsabiqədə iştirak zamanı avadanlıq üçün 500 $ məbləğinədək texniki dəstək təmin ediləcək. Qeyd edək ki, layihənin ümumi maliyyə dəyəri də 500$ məbləğini aşmamalıdır.
• İştirakçı müraciət etməzdən əvvəl müsabiqə və iştirak şərtləri ilə bağlı bütün şərtləri və qaydaları oxuyub təsdiq etməklə müsabiqədə iştirak edə bilər.

(!) Bütün müsabiqə iştirakçıları yuxarıda qeyd edilən şərtləri qəbul edirlər.

## 4. MÜRACİƏTLƏR

Müraciətlər festivalın rəsmi səhifəsi www.teknofest.az vasitəsilə qəbul ediləcək.
Müraciət etmək üçün 28.02.2022 tarixinədək anketi doldurmaq lazımdır.

**A kateqoriyası üçün:**

Müraciət formasında:

– İştirakçının adı və soyadı, orta məktəbin adı, şöbənin adı və əlaqə üçün informasiya (elektron poçt ünvanı, telefon nömrəsi), layihənin adı və kateqoriya,
– Məsləhətçi haqqında informasiya müraciət edilən zaman ümumi anketdə göstərilir.

**B kateqoriyası üçün:**

Müraciət formasında;
– İştirakçının adı və soyadı, universitet, fakültə, şöbənin adı və əlaqə üçün informasiya (elektron poçt ünvanı, telefon nömrəsi), layihənin adı və kateqoriyası,
– Məsləhətçi haqqında informasiya müraciət edilən zaman ümumi anketdə

göstərilir.

**C kateqoriyası üçün:**

– İştirakçının adı və soyadı, təhsili, məşğuliyyət növü və iş yeri, əlaqə üçün informasiya (elektron poçt ünvanı, telefon nömrəsi), layihənin adı və kateqoriyası,
– Məsləhətçi haqqında informasiya müraciət edilən zaman ümumi anketdə göstərilir.

## 5. VAXT QRAFİKİ, XAL HESABI VƏ QİYMƏTLƏNDİRMƏ

**Cədvəl 1: Vaxt qrafiki**

| TARİX | TƏSVİR |
|---|---|
| 28.02.2022 | Müsabiqədə iştirak üçün müraciətin son müddəti |
| 09.03.2022 | Layihə haqqında ilkin hesabatın təqdim edilməsi üçün son müddət. Layihənin həyata keçirilməsi üçün avadanlıq ayrılmasına görə müraciət edilməsi. |
| 12.03.2022 | Qeydiyyatdan keçmiş komandaların siyahısının elanı |
| 15.05.2022 | Layihə haqqında ətraflı hesabatın və video hesabatın təqdim edilməsi müddəti. |
| 22.05.2022 | Finalda nümayişə hazır prototiplə iştirak edəcək finalçı komandaların nəticələrinin elan edilməsi |
| 26-29 May 2022 | TEKNOFEST AZERBAIJAN 2022 |

## 6. LAYİHƏNİN İLKİN DİZAYNI HAQQINDA HESABAT

Komandalar layihənin qiymətləndirilməsi haqqında ilkin hesabatları və müsabiqənin təqvimində göstərilən tarixi təqdim etməlidirlər. Layihənin ilkin dizaynı sərbəst formada, istənilən mövcud proqramda həyata keçirilə bilər. Layihə PDF formatında təqdim edilməli və qrafik və diaqramlarla birlikdə 3 səhifədən çox olmamalıdır. Layihə Google drive şəkilində yüklənməlidir və bizə onun yükləmə linki təqdim edilməlidir. Layihədə prototipin həyata keçirilməsi üçün zəruri komponentlərin və avadanlıqların siyahısını göstərmək lazımdır. Layihənin ilkin dizayn hesabatda aşağıdakı məqamları nəzərə almaq lazımdır:

İnnovativ və orijinallıq:
Layihə ideyasının dünyada əvvəllər bu sahədə həyata keçirilən digər layihələrlə oxşar olub-olmaması yoxlanılacaq.

Aktuallıq:
Layihə ideyasının cəmiyyətə hansı həll variantını gətirəcəyini və təqdim olunan layihə ideyasının bu həlli dəstəkləyib-dəstəkləmədiyi tədqiq ediləcək.

Qeyd: Taymlaynda göstərilən vaxtadək hesabat faylını göndərməyən komandalar aşağı bal alacaq və ya gələcək müsabiqədə iştirak edə bilməyəcəklər.

## 7. LAYİHƏ HAQQINDA VİDEO

Komandalar müsabiqə təqvimində göstərilən tarixdə layihənin ilkin qiymətləndirilməsini onların hesabatları ilə birlikdə layihənin təqdimatı üzrə videoçarxlarla təqdim etməlidir. Videoçarxda siz layihənin ideyası, layihənin həyata keçirilməsində olan problemlər, problemin həlli ilə bağlı təkliflər və onun metodu haqqında məlumat verməlisiniz. Videotəqdimat vizual alətlər, avadanlıq və materiallarla müşayiət oluna bilər. Layihə haqqında video həm "YouTube", həm də "Vimeo"da link şəklində sistemə yüklənməlidir.Video mobil telefonla çəkilə bilər, biz peşəkar video post istehsalı tələb etmirik. Videonun təsvir ölçüsü minimum 720p, ümumi davamlılığı isə 2 dəqiqə təşkil etməlidir. Göstərilən vaxtı aşan iştirakçıların videoları qiymətləndirilməyəcək. Videolar qrafikdə göstərilən tarixdən sonra redaktə edilə, silinə və ya dəyişdirilə bilməz. Taymlaynda göstərilən vaxtadək video və hesabat fayllarını göndərməyən komandalar aşağı bal alacaq və ya gələcək müsabiqədə iştirak edə bilməyəcəklər.

## 8. LAYİHƏ HAQQINDA ƏTRAFLI HESABAT SƏVİYYƏSİNDƏ SEÇİM KRİTERİYALARI

Bu səviyyəyə ilkin dizayn mərhələsini keçən komandalar buraxılacaq və aşağıda göstərilən meyarlar üzrə qiymətləndiriləcək:

<u>İnnovativlik və orijinallıq:</u>
Layihə ideyasının əvvəllər bu sahədə həyata keçirilən digər layihələrə bənzərliyi yoxlanılacaq

- Dünyada oxşar məhsul və layihələr mövcuddur?
- Hansi yeni texnologiya, dizayn və ya xidmətlər təqdim edilir?
- Layihənin bazarda analoji məhsullardan fərqi nədədir?

<u>Tələbat:</u>

• İdeyanın cəmiyyətə hansı xeyri verəcəyi araşdırılacaq:
• Layihə ideyası cəmiyyətin hansı konkret problemini həll edir
• Nə üçün mövcud həllər azdır
• Layihə ümumilikdə yerli və regional problemi həll edirmi və onun həllinə necə töhfə verə bilər

Həll üsulu:
Həll yaradılması üçün istifadə edilən yanaşmanın özü və onun rasionallığı nəzərdən keçirilir.
• Həll hansı elmi və ya texniki tətbiqlər əsasında təklif olunur? Onların əsas prinsipləri hansılardır?

Tətbiq:
Layihənin reallaşdırılması və tətbiqinin real imkanları və onun hazır kommersiya məhsuluna necə çevrilə biləcəyi nəzərdən keçiriləcək.

Təxmini dəyər:
Layihənin seriyalı istifadəyə verilməsinin kapitallaşması və maliyyə riskləri, onun ən az xərclə həyata keçirilməsinin mümkünlüyü qiymətləndiriləcək. İstehsalın planlaşdırılması, büdcəsi və seriyalı istehsalın işə salınması prosesində istifadə olunacaq materiallar.

Büdcə:
• Layihənin dəyəri hesablanıb? Maliyyə xərcləri bazarda mövcud analoji layihələrlə müqayisə edilib?

Layihə ideyasının auditoriyası:
Burada layihədən istifadə və ona cəmiyyətin mümkün münasibəti qiymətləndiriləcək.
• Məhsulun məqsədli auditoriyası hansıdır?
• Layihənin etibarlılığının analizi aparılıb?
• Məhsul məşhur olacaq?

Risk faktorları:
• Bütün mümkün risk faktorları və tətbiqin mənfi tərəfləri qiymətləndiriləcək.
• Müəlliflərin layihəyə mənfi təsir göstərəcək risk faktorlarını müəyyən edib-etmədikləri yoxlanılacaq.
• Layihənin reallaşması zamanı yarana biləcək problemlər müəyyən edilibmi?

Yuxarıda qeyd edilən bəndlərdən başqa müsabiqə administrasiyası məqsədəuyğun hesab edəcəyi halda digər kriteri əlavə edə bilər. Yenilənmiş kriterilər müsabiqənin təlimatında dərc ediləcək.

## 9. QİYMƏTLƏNDİRMƏ VƏ BALLARIN BÖLÜŞDÜRÜLMƏSİ

**Cədvəl 2:**

| Hesab növü | Faizlər |
|---|---|
| İlkin dizayn haqqında hesabat (9.03.2022) | % 10 |
| Layihə haqqında ətraflı hesabat | % 20 |
| *Prototip və  Təqdimat | % 70 |

**<u>*Prototipin qiymətləndirilməsi və təqdimat</u>**

Finalçı komandaların layihələri ekspert münsiflər heyətindən ibarət komandalar tərəfindən müvafiq kateqoriyalarda qiymətləndiriləcək. Münsiflər heyəti tərəfindən qiymətləndirmə üçün vizual təqdimat da hazırlanmalıdır. Prototip layihənin son mərhələsi olan məhsul prosesin konkret nümayişidir. Bu, müxtəlif materiallardan ibarət nümunə ola bilər. Müsabiqə iştirakçılarının öz prototiplərini münsiflər heyətinə nümayiş etdirməsi üçün tələblər və vizual təqdimatlarla bağlı tələblər haqqında məlumat son mərhəlini keçdikdən sonra dərc olunacaq.Finalda komandalar vizual təqdimat və komandanın identifikasiyası üçün tanıtım posterinin dizaynını hazırlayacaqlar. Biz plakatın ölçüsünü 2022-ci il aprelin sonunda təqdim edəcəyik. Finala keçən iştirakçılar 2022-ci ilin mayında Teknofest Azərbaycan  festivalında (Baku Crystal Hall-da) elan ediləcək.

## <u>10. MÜKAFATLAR</u>

Aşağıdakı cədvəldə göstərilən pul mükafatları Final kateqoriyasında münsiflər heyətinin qapalı və açıq səsverməsi vasitəsilə seçilən komandalara təqdim ediləcək. Həmçinin müsabiqə çərçivəsində qalib komandanın məsləhətçisi 700 AZN  məbləğinədək xüsusi pul mükafatına layiq görüləcək.

**Cədvəl 3 :**

| Kateqoriya | A Kateqoriya | B Kateqoriya | C Kateqoriya | Məsləhətçi (mentor) |
|---|---|---|---|---|
| 1-ci yer | 4 000 AZN | 6 000 AZN | 6 000 AZN | 700 AZN |
| 2-ci yer | 2 000 AZN | 4 000 AZN | 4 000 AZN | 500 AZN |
| 3-ci yer | 1 000 AZN | 2 000 AZN | 2 000 AZN | 300 AZN |

<u>"Ən yaxşı layihə təqdimatı" nominasiyasında mükafat</u>

Diplom və suvenir şəklində mükafat finala keçməkdən asılı olmayaraq tapşırığı

daha yaxşı həll etməyə çalışan komandalara təqdim olunur. Layihənin icrası üzərində bütün səviyyələrdə layiqincə çalışan komandaların təqdimatına çevrilir. Diplom nüfuz əlamətini bildirir və pul ekvivalenti yoxdur.

## 11. ÜMUMİ QAYDALAR

- Komandalar öz komanda rəhbərləri vasitəsilə müvafiq hakimə etiraz etmək hüququna malikdirlər. Etiraz daha sonra yazılı şəkildə təqdim edilmək şərtilə şifahi olaraq verilə bilər. Şifahi etirazlar 24 saat ərzində yazılı şəkildə bildirilməlidir. İstənilən halda, yazılı olmayan etirazlar nəzərə alınmayacaq. Etirazlar hakimlər heyəti tərəfindən araşdırıldıqdan sonra 72 saat ərzində yekunlaşdırılacaq.
- Qiymətləndirmənin nəticələri elan edildikdən sonra komanda rəhbərlərindən öz etirazlarını və əsaslandırmalarını yazılı şəkildə təqdim etmələri tələb olunur. Etirazlar contest@technofest.az e-mail ünvanından qəbul edilməlidir.
- Etiraz prosesi müsabiqənin nəticəsi elan olunduqdan sonra bir həftə - 7 gün ərzində aparılmalıdır. Əks halda etirazlar nəzərə alınmır.
- Məsləhətçinin rolu; tələbələrə öz təhsillərini planlaşdırmağa kömək etmək, onları akademik, sosial və mədəni məsələlərdə istiqamətləndirmək, bütövlükdə tələbə şəxsiyyətinin mental, sosial və emosional aspektləri ilə bir bütün olaraq inkişafın uyğun mühitin hazırlanmasına kömək etmək və s. vəzifə və xidmətlər. Komandada məsləhətçinin rolu layihədə lazım olacaq akademik dəstəyi təmin etmək, komanda üzvlərinə problemlərinin həlli yollarını tapmaq üçün istiqamət verməkdir.
- Müsabiqənin predmeti olan ideya işi komanda üzvü ilə birlikdə ərsəyə gələ bilər və bu ideya yalnızca komandaya məxsusdur, məsləhətçi bu mərhələdə ideyanın sahibi kimi qəbul edilməyəcək.
- Saytımızda ötən illərin hesabatlarında faydalanan komandalarımız istinad edilən cümlədən sonra sitat ifadəsini əlavə etməlidirlər. İstifadə edilən format: “İstifadə olunan ifadələr (İl, Müsabiqənin Adı, Kateqoriya, Komandanın adı) Nümunə Sitat: “Zəlzələ qurbanının dağıntı içərisində yerinin təyin olunmaması onlar üçün dağıntıların çıxarılmasını və axtarışını ləngidən ən mühüm problemdir.” (2020, İnsanlıq üçün Texnologiya, Fəlakətlərin İdarə Edilməsi, X komandası)
- Hər bir iştirakçı lazımi ehtiyat tədbirlərini görməklə, öz həmyaşıdlarına və ətraf mühitə gözlənilən diqqəti göstərməklə mükəlləfdir.

- T3 Fondu və Teknofest Azərbaycan müsabiqənin müəyyən edilmiş qərəzsiz meyarlara uyğun olaraq keçirilməsi məqsədilə hər bir pozuntunun məhkəmə qərarı ilə nəticələnməsi və bütün tələblərə daha yaxşı cavab verməsi üçün spesifikasiyalara hər hansı düzəliş etmək hüququnu özündə saxlayır, lazımi təhlükəsizlik tədbirlərini təmin etmək və müsabiqə spesifikasiyalarının funksionallığını qorumaq.
- Son müraciət tarixindən sonra lazımi qiymətləndirmələri edən T3 Fondu və Teknofest Azərbaycan tələb olunan texniki bilik və bacarıqlara sahib kifayət qədər müraciətin əldə edilmədiyini nəzərə alaraq müsabiqəni ləğv etmək hüququnu özündə saxlayır.
- T3 Fondu, Teknofest Azərbaycan Təhlükəsizlik Qayda və Şərtləri bütün müsabiqə iştirakçılarına, nümayəndə heyətlərinə və bununla maraqlanan tərəflərə bildiriləcək. Yarışan bütün komandalar Teknofest Mühafizə və Təhlükəsizlik Qayda və Şərtlərində göstərilən, müvafiq kateqoriyalara xas olan təhlükəsizlik qaydalarına və şərtlərinə riayət etmək üçün məsuliyyət daşıyırlar. Bununla əlaqədar olaraq, təhlükəsizlik təlimatlarında öz əksini tapan təhlükəsizlik tədbirləri istisna olmaqla, istifadə edilən sistemlərdən qaynaqlanan əlavə tədbirlərin alınması iştirakçıların məsuliyyətindədir.
- T3 Fondu və Teknofest Azərbaycan müsabiqənin keçirilməsi məqsədilə təhlükəsiz mühiti təmin etmək üçün Teknofest Mühafizə və Təhlükəsizlik Qayda və Şərtlərini yetirməyən istənilən şəxs və malikdir. T3 Fond və Teknofest Azərbaycan heyətləri tərəfindən şərtlərin pozulması nəticəsində yaranan nümayəndə komandanı müsabiqədən yerinə kənarlaşdırmaq hüququna zrərə gəörə məsuliyyət daşımır.
- Müsabiqə ilə əlaqədar olaraq iştirakçı, T3 Fondu və ya Teknofest Azərbaycan tərəfindən müsabiqədən öncə və sonra ediləcək hər cür yazılı və vizual tanıtım, nəşr, sosial şəbəkə və internet yayımlarını qəbul edir və buna razılıq verir. Bundan əlavə iştirakçı dizaynlar, kodlar və istehsal olunmuş məhsullar daxil lakin bunlarla məhdud olmamaq üzrə müsabiqə ilə əlaqədar ərsəyə gələn hər bir əqli mülkiyyət yalnız T3 Fondu  və Teknofest Azərbaycana məxsusdur və iştirakçı bu artefaktlar üzərində hər hansı bir haqq və ya tələb hüququna sahib deyil. T3 Fondu və Teknofest Azərbaycanın bütün əqli mülkiyyəti müvafiq hesab etdiyi şəkildə ictimai istehlak üçün açıqlama hüququnu özündə saxlayır.
- İştirakçının hər hansı məhsulun əqli mülkiyyət hüquqlarını pozması və T3 Fondu və Teknofest Azərbaycana zərər verməsi vəziyyətində,

bütün bu zərərlərin məsuliyyəti təmamilə iştirakçılara aiddir.

- Müsabiqədə iştirak etmək hüququ qazanan bütün komandalara rəsmi İştirakçı Sertifikatı veriləcək.

## 12. ETİK QAYDALAR

- Festival ərazisində və ya yarışma prosesində (hesabat mərhələləri, qiymətləndirmə prosesi və s.) ictimai əxlaqa zidd hal, hərəkət, çıxış və s. edən şəxslər təcili olaraq hüquqi proses başlanacaq və komanda T3 Fondunun hər cür yarış və fəaliyyətlərində ən az 2 il iştirak etməmək şərtilə bütün komanda kənarlaşdırılacaq.
- T3 Fondu və Teknofest Azərbaycan ilə ünsiyyətdə istifadə olunan dildə nəzərə alınmalı məqamlar aşağıdakılardır

- Kobud və nəzakətsiz söz və davranışlardan çəkinmək lazımdır,
- Təhqir, təhdid və yalnış sözlərdən çəkinmək lazımdır,
- E-mail, facebook, skype, messenger, whatsapp, twitter və s. kimi sosial şəbəkə üzərindən birbaşa hədəf göstərmək və təhqir etməkdən çəkinmək lazımdır,

  Müraciət və etirazlarınızda orfoqrafiya qaydalarına, üsluba diqqət yetirmək lazimdır.

- Festival ərazisində digər komandaların fəaliyyətinə və motivasiyasına təsir edəcək vəziyyətlər, hərəkətlər, sözlər və s. nümayiş olunmamalıdır.
- Qonaqlama xidmətlərinin göstərildiyi yataqxana və onun ətrafında sosial əmin-amanlıq nəzərə alınmalıdır. Əks halda həmin şəxs haqqında məhkəmə prosesinin başlanması müvafiq qurumlar tərəfindən həyata keçiriləcək.
- Layihə və məhsulun hazırlanması prosesində hər cür axsaqlıqları nəzərə alaraq lazımi avandanlıq və materialların öncədən ehtiyatını depolamaq/saxlamaq, baş verəbiləcək axsaqlıqlar zamanı hissləri dəyişdirmək komandanın məsuliyyətidir. Digər komandadan məhsul tədarükü təmin edilməməlidir.
- Dil, din, fəlsəfi inanc, siyasi fikir, irq, yaş və cins ayrı-seçkiliyi qoyulmadan, festival ərazisində bərabər imkanlara mane olan davranış və hallara yol vermədən, Teknofest Azərbaycan təşkilat komitəsi tərəfindən təklif olunan bütün növ xidmətlərdə tələblərə uyğun olaraq tərəfsiz davranmağa diqqət yetirilməlidir.
- T3 Fondu, Teknofest Azərbaycan və digər şirkət, müəssisə, təşkilata aid mal və resurslardan təyinat və xidmət tələbləri xaric istifadə etməməyə və onları israf etməməyə diqqət yetirmək lazımdır.
- Festivalın fəaliyyətini asanlaşdırmaq, ehtiyaclarını ən səmərəli,

sürətli və verimli bir şəkildə qarşılamaq, xidmət keyfiyyətini və festival məmnuniyyətini artırmaq üçün keçirilən fəaliyyətlərə dəstək vermək lazımdır.

- İştrakçılara, qohumlarına, dostlarına və ya təmasda olduqları şəxslərə və ya təşkilatlara verilən və festival ərazisindəki rəqiblərə təsir edən və ya onlara təsir göstərə bilən hər cür fayda və maliyyə və ya digər öhdəliklər və oxşar şəxsi maraqlara qarşı diqqətli olun.
- T3 Fondu və Teknofest Azərbaycan bina və nəqliyyat vasitələrindən və digər ictimai resurslardan istifadə edərkən israfçılığa yol verməmək, iş vaxtından, resurslardan, əmək və obyektlərdən istifadə edərkən səmərəli və qənaətcil fəaliyyət göstərmək lazımdır.
- T3 Fondu və Teknofest Azərbaycan komandasının üzvləri fəaliyyət zamanı öz öhdəliklərinə görə cavabdeh olmalı, korporativ qiymətləndirmə və nəzarətə açıq və hazır olmalı, məsləhətçilər məqsəd və hədəflərə uyğun olmayan davranış və korrupsiyanı önləmək üçün lazımi tədbirlər görməli, etik davranış prinsipləri mövzusu öyrədilməli, bu prinsiplərə əməl edilib-edilməməsi izlənməli və etik davranışa dair təlimatlar verilməlidir.
- Komanda üzvləri öz vəzifələrini yerinə yetirərkən çalışdıqları qurumlarla bağlı hər hansı öhdəlik, vəd və ya cəhdlər etməməli, aldadıcı və həqiqətə uyğun olmayan açıqlamalar verməməlidirlər.

## 12.1 MƏSULİYYƏT BƏYANNAMƏSİ

Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin Teknofest Azərbaycan təşkilat komitəsinə hər hansı bir elan, iştirakçı və ya diskvalifikasiya nəticəsində yaranan ziyan və zərərə görə heç bir şəkildə məsuliyyət daşımır. Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikasının qanunları çərçivəsində işləməsini təmin etmək üçün məsuliyyət daşıyır. Müsabiqə iştirakçılarının üçüncü şəxslərə vurduğu ziyana görə Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyin Teknofest Azərbaycan Təşkilat Komitəsi həmçinin təşkilatın vəzifəli şəxsləri məsuliyyət daşıya bilməzlər.

**Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf Nəqliyyat Nazirliyi yuxarıda qeyd olunmuş müsabiqə qaydalarında və onun razılaşdırılmış bütün spesifikasiyalarında hər hansı dəyişiklik etmək hüququna sahibdir.**